*100 il sərhəd xidmətində*

# Müstəqil Azərbaycan dövlətinə sədaqətlə

**“Müstəqil dövlətimiz əsrlər boyu yaşayacaqdır. Nə qədər yaşayacaqsa, o qədər də onun sərhədləri olacaq və o qədər də o sərhədləri qorumaq lazım olacaqdır. Şübhəsiz, dünyada elə bir əmin-amanlıq dövrü gələcək ki, bəlkə də sərhədləri qorumaq lazım olmayacaqdır. İnsanlar elə bir səviyyəyə gəlib çatacaqlar, dövlətlərarası münasibətlər elə bir yüksək, sivilizasiyalı səviyyəyə gəlib çatacaqdır ki, bəlkə bunlara ehtiyac olmayacaqdır. Ancaq o səviyyəyə çatmaq üçün də nizam-intizamı möhkəmləndirmək, sərhədlərimizi hər yerdə həkk etmək, nümayiş etdirmək, tanıtmaq, qorumaq lazımdır”.**

**Heydər ƏLİYEV.**



Sərhəd - vətən hüdudlarının istehkamıdır. Vətənin hər qarış torpağı bizlər üçün ən dəyərli nemətdir. Atalarımızın gözəl bir deyimi var: **“Ana kimi yar olmaz, vətən kimi diyar”.** Onlar göz bəbəyi kimi qorunur. Təsadüfi deyil ki, xalqımız VƏTƏN kəlməsini hər zaman ANA kəlməsi ilə birgə işlədir. Çünki qoynunda böyüyüb boya-başa çatdığımız bu diyar anamız qədər əziz və doğmadır. Tarixi mənbələrdən məlum olduğu kimi, hələ qədim zamanlardan doğma torpaqlarımızı öz qanı bahasına yadlardan qoruyan, onun hər qarışına, daşına, çiçəyinə, otuna, hər damcı suyuna, dərəsinə, təpəsinə, qayasına önəm verən qeyrət timsallı ulularımız, qəhrəmanlarımız, cəngavərlərimiz bütün dünyaya səs salmışlar.

Azərbaycanda milli sərhəd xidmətinin yaranma tarixi milli dövlətçilik tarixində silinməz izlər qoymuş keçən il 100 illiyini qürur hissi ilə qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Həmin il iyunun 22-də Azərbaycanda ilk dəfə olaraq Poylu sərhəd postu yaradılmış, ardınca digər istiqamətlərdə də sərhəd məntəqələrinin yaradılması işinə başlanılmışdır. 1919-cu il avqustun 18-də hökumətin qərarı ilə “Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında” qanun qəbul edildikdən sonra, əlavə olaraq 99 post yaradılmış və Hərbi Nazirliyin tərkibində ölkənin bir sıra güc strukturları, o cümlədən Sərhəd Qoşunları fəaliyyətə başlamışdır.

1991-ci ilin oktyabrında tarixi haqqımız olan müstəqilliyimizi əldə etdikdən sonra *həmin il dekabrın 16-da Azərbaycan Respublikası Dövlət Sərhədini Mühafizə Komitəsi təsis edilmiş və milli qüvvələrimiz ölkəmizin sərhədlərini qorumağa başlamışlar.*

Azərbaycan xalqı üçün böyük uğurlara imza atmış, böyük dövlətçilik, idarəçilik təcrübəsi olan ulu öndərin müdrikliyi sayəsində hələ dövlət müstəqilliyimizin ilk illərində ictimai həyatın bütün sahələrində olduğu kimi, dövlət sərhədlərinin mühafizəsində də yeni mərhələ başlamışdır. Belə ki, 2000-ci il avqustun 16-da 1919-cu il Azərbaycan Demokratik Respublikasının ilk sərhəd mühafizəsinin təsis edildiyi gün —18 avqustun Azərbaycan Respublikasının sərhəd mühafizə orqanları əməkdaşlarının peşə bayramı günü kimi elan edilməsi haqqında Sərəncam imzalanmışdır. Daha sonralar, 2002-ci il iyul ayının 31-də Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsi əsasında Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin yaradılması barədə fərman imzalanmış və Azərbaycan dövləti üçün sərhədlərin etibarlı mühafizəsinin xüsusi əhəmiyyət kəsb etməsi nümayiş etdirilmişdir. Dövlət sərhədlərinin mühafizəsi məsələlərinə göstərilən diqqət və qayğı sayəsində cənub sərhədlərində dağıdılmış sərhəd infrastrukturunun bərpası, ölkənin şimal və şimal-qərb sərhədlərində sərhəd məntəqələrinin yaradılması və maddi-texniki bazanın möhkəmləndirilməsi, yeni yaradılmış sərhəd dəstələrində və sərhəd zastavalarında müasir tələblərə uyğun xidməti və yaşayış binalarının tikilib istifadəyə verilməsi prosesləri uğurla davam etdirildi. Milli sərhəd mühafizəsinin formalaşdığı 1993-2002-ci illərdə dövlət sərhədlərinin etibarlı mühafizəsinin təşkili sahəsində böyük irəliləyişlərə nail olundu.

Azərbaycan-Rusiya sərhədində Xudat Sərhəd Dəstəsi və Şəki Əlahiddə Sərhəd Komendantlığı, Azərbaycan-Gürcüstan sərhədində Zaqatala və Şəmkir sərhəd dəstələri yaradıldı, sərhəd mühafizəsinin formalaşması prosesi vüsət almağa başladı. Yüksək dövlət qayğısı ilə əhatə olunan Dövlət Sərhəd Xidməti az zaman ərzində sürətlə inkişaf etdirildi, böyük tikinti-quruculuq işləri aparıldı, ölkəmizdə müasir tələblərə cavab verən xüsusi texnika, avadanlıq və vasitələrlə təmin olunmuş güclü sərhəd infrastrukturu yaradıldı. Ümummilli liderin keçirdiyi görüşlərində sərhədçilərin qarşısında yeni və daha konkret vəzifələr qoymaqla, qonşu dövlətlərlə dövlət sərhədinin demarkasiyası və delimitasiyasının tamamlanması, sərhədlərimizin təhlükəsizliyinin təmin edilməsi sahəsində gördüyü mühüm işlərlə Azərbaycanın dövlət sərhədlərinin mühafizəsi konsepsiyasını yaratdı, milli sərhəd siyasətimizi formalaşdırdı.

Dövlət Sərhəd Xidməti beynəlxalq arenada əməkdaşlığı inkişaf etdirərək Avropa İttifaqı, NATO, BMTİP, BMT QAK, GUAM, ATƏT və bir sıra digər nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də Rusiya Federasiyası, İran, Gürcüstan, Almaniya, Fransa, Türkiyə, Ukrayna, Belarus, Baltikyanı ölkələr, Çin, Cənubi Koreya və digər ölkələrin sərhəd qurumları ilə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi sərhəd infrastrukturunun müasirləşməsinə, yeni texnologiyaların mənimsənilməsinə və tətbiqinə, Transxəzər iqtisadi layihələrin həyata keçirilməsinə, neft-qaz ixrac-boru kəmərlərinin sərhəd boyu zolaqdan keçən hissələrinin mühafizəsinin təşkilinə, TRASEKA, Şərq-Qərb və GUAM dəhlizlərinin təhlükəsizliyinin təmin edilməsi kimi mühüm sahələrə, sərhəddə mövcud olan problemlərin aradan qaldırılmasına müsbət təsir göstərmişdir. Artıq bir neçə ildir ki, Sərhəd Məsələləri üzrə Beynəlxalq Şiofok Konfransının (SMBK) bəzi işçi qrupunun iclasları Bakı şəhərində keçirilir. 1993-cü ildən fəaliyyət göstərən, 50-dən çox ölkəni və 17 beynəlxalq təşkilatı özündə birləşdirən bu Konfransa 2002-ci ildən qoşulan Dövlət Sərhəd Xidməti qısa müddət ərzində təşkilatın işində fəal iştirak edərək qabaqcıl mövqe tutmuşdur. DSX konfransın işçi qruplarına üzv olmuş və “Sahil Mühafizəsi” işçi qrupuna rəhbərlik etmişdir. Sərhəd Məsələləri üzrə Beynəlxalq Şiofok Konfransı iştirakçısı, Almaniyanın Federal Sərhəd Mühafizəsinin rəisi Udo Burkholder demişdir:

*“Sərhəd xidmətçiləri vahid bir ailəyə mənsubdur. Azərbaycan sərhədçilərinin bu ailədə xüsusi yeri var”.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin milli sərhəd siyasətini uğurla davam etdirərək sərhədçiləri və Sərhəd Qoşunlarını daim dövlət qayğısı ilə əhatə edir. Belə ki, 2004-cü il yanvar ayının 14-də Naxçıvan Sərhəd Dəstəsinin bazasında sərhəd diviziyası yaradıldı. 2005-ci il fevral ayının 18-də cənab Prezidentin Fərmanı ilə gözətçi gəmilər dəstəsinin əsasında Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yaradılması dəniz sərhədlərinin mühafizəsinə və Xəzərdə ölkəmizin maraqlarının daha yüksək səviyyədə təmin edilməsinə geniş imkanlar yaratdı. Qısa müddət ərzində Dövlət Sərhəd Xidmətinin Xəzər dənizində müşahidə, axtarış və xilasetmə imkanları xeyli inkişaf etdirildi, sərhəd gözətçi gəmiləri müasir naviqasiya və aşkaretmə avadanlıqları ilə təchiz edildi, dəniz səthi üzərində nəzarətin təşkili üçün zəruri istiqamətlərdə radiolokasiya stansiyaları quraşdırıldı. 2005-ci il dekabr ayının 27-də “Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı” təsdiq edildi və müvəffəqiyyətlə icra olundu. Ölkə başçımızın sərəncamı ilə 2007-ci il iyun ayının 12-də Dövlət Sərhəd Xidməti Akademiyasının təsis edilməsi ölkəmizin sərhəd mühafizəsi sisteminin təkmilləşdirilməsində mühüm rol oynadı. 2008-ci il sentyabr ayının 14-də Dövlət Sərhəd Xidməti Akademiyasının ilk kursantları Vətənə, dövlətə sədaqət andı içərək təlim və tədrisə başladılar.

**Milli sərhəd siyasəti** istiqamətində görülən işlərin nəticəsində Dövlət Sərhəd Xidmətinin idarəetmə sistemi xeyli təkmilləşdirildi, müasir radiorabitə və telekommunikasiya sistemlərinin tətbiqinə başlanıldı. DSX-nin Aparatı ilə sərhəd dəstələri arasında peyk rabitəsi sistemi yaradıldı. Bildiyiniz kimi, bu gün ölkəmiz dünyanın kosmik klubunun üzvüdür. Respublikamız MDB regionunda telekommunikasiya peykinə sahib olan üç ölkədən birinə, eləcə də bütövlükdə Cənubi Qafqazda yeganə dövlətə çevrilmişdir. 2013-cü il fevralın 8-də “Azerspace-1” telekommunikasiya, 2014-cü il iyunun 30-da “Azersky” müşahidə, 2018-ci il sentyabrın 26-da “Azerspace-2” peyklərinin orbitə çıxarılması digər sahələrlə yanaşı, dövlət sərhədlərinin mühafizəsi istiqamətində də yeni imkanlar yaratmış oldu.

Dövlətimizin və müstəqilliyimizin əsas atributlarından biri sayılan sərhədlərimizin keşiyində əzmkarlıqla dayanan Dövlət Sərhəd Xidməti özünün 100-cü ildönümündə sürətli inkişaf mərhələsini yaşayır. Heç şübhəsiz, Azərbaycan Dövlət Sərhəd Xidmətinin əldə etdiyi uğurların arxasında, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin gərgin əməyi və davamlı qayğısı dayanır. Bu sahəyə xüsusi diqqət və qayğı, əlbəttə böyük tələb və etimadla müşayiət olunur. Ümumi uzunluğu 3472 kilometr olan dövlət sərhədlərimizdə, istənilən hava və iqlim, ən çətin və ağır relyef, o cümlədən gecə və məhdud görmə şəraitində Vətəni qorumaq kimi ən ümdə vəzifəni yerinə yetirən sərhədçilərin Vətən sevgisi, köksümüzü qabardır, qəlbimizi qürur hissi ilə doldurur.

Gənclərin Vətənə, onun sərhədlərinə məhəbbət ruhunda böyüməsində sərhədçi qəhrəmanların şücaətləri, onların xidmət-döyüş yolu barədəki söhbətləri mühüm rol oynayır. Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunan torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə və dövlətçiliyin qorunmasında sərhədçilərimiz də mərdliklə vuruşmuşlar. Həmin döyüşlərdə qəhrəmancasına həlak olmuş ilk sərhədçi Milli Qəhrəman baş leytenant Eldar Məmmədov, “Azərbaycan Bayrağı” ordeni ilə təltif olunmuş leytenant Tahir Bədəlov böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərmişlər. Azərbaycanın Milli Qəhrəmanları Eltun İsgəndərov, baş leytenant Əmiraslan Əliyev, gizir Faiq Cəfərov, kursant Bəhruz Mansurov, polkovnik-leytenant İntiqam Atakişiyev, “Azərbaycan Bayrağı” ordenli Qorxmaz Həşimov, “İgidliyə görə” medalı ilə təltif olunmuş əsgər Ramin Lələyev, Elçin Qasımov, gizir Qulam Ələkbərov, çavuş Natiq Xəlilov, “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medallı kiçik çavuş Səxavət Məmmədov və bir çox başqaları öz qəhrəmanlığı ilə torpaqlarımızın ərazi bütövlüyü və tərəqqisi uğrunda aparılan mübarizədə xalqımızın şərəfli tarixinə yeni sətirlər yazıblar.

Babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu, bəşəriyyətin mədəni irsinə öz töhfələrini vermiş zəngin mədəniyyət xəzinələrimizi, milli dəyərlərimizi qorumaq, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olan sərhədçilərimizi peşə bayramları münasibətilə təbrik edirik!..

**Günay ƏLİYEVA.**